# Ana dilimiz müqəddəs mənəvi sərvətimiz, milli qürurumuzdur

**❒ İstirahət günüdür. Bakının daim izdihamlı Nizami küçəsi ilə irəliləyirəm. Bura günün bütün vaxtlarında gəzməyə, alış-verişə, əylənməyə çıxan yerli sakinlərlə və şəhərimizin qonaqları ilə dolu olur. Önümdə, sağ-solumda hərəkət edən insanlar ovqatları, geyim-keçimləri, danışıqları ilə fərqli olduqları kimi, millətləri, dilləri də müxtəlifdir. Yad danışıqların üstünlüyü, gözə sıx-sıx dəyən lövhə, göstərici və reklamlardakı kənar ifadə və təsvirlərin də çoxluğu, ilk baxışda, adamda elə təsəvvür yaradır ki, sanki, bura Azərbaycan deyil, özgə bir məmləkət, insanlar da qeyri-azərbaycanlılardır.**



Yoluma davam edirəm. Şirkət, ticarət, əyləncə obyektlərinin üzərindəki adlar, məlumatlar, bildirişlərin çoxu doğma dilimizdə olmadığından mənalarını anlamır, sıxılıram. Düşünürəm: yəni biz doğma paytaxtımızda yox, xarici ölkədəyik? Özümü bu yerlərdə yad sanıb qəribsəyirəm. Hardasan, Azərbaycan!-deyə hayqırmaq istəyirəm... Elə bu vaxt ətrafdan gözəl-göyçək qızcığazın bal kimi şirin səsi eşidilir: “Azər, gəl, anamız çağırır”. Şirin ana dilimizdə səslənən bu doğma sözlər məlhəm olub könlümə, ruhuma yayılır.

Bu məqamda Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Prezident İlham Əliyevin bugünlərdə imzaladığı növbəti fərmanın müddəaları yadıma düşür. Bu önəmli dövlət sənədi xalqımızın ana dilinin ədəbi dil səviyyəsində qorunmasına və zənginləşdirilməsinə yönəlik dövlət siyasətinin davamlığının və mükəmməlliyinin daha bir təzahürü, Azərbaycan dilinin geniş işləkliyinin və saflığının təmin edilməsi ilə bağlı son vaxtlar artmaqda olan ictimai narahatlığa dövlət başçısı İlham Əliyevin həssas və tələbkar münasibətinin təsdiqidir.

Son illərdə ana dilimizin dövlət dili statusunun təmin edilməsi, saflığının qorunması ilə bağlı qəbul edilmiş çoxsaylı qanun və dövlət proqramında, Prezident sərəncamı və fərmanında birmənalı olaraq qeyd edildiyi kimi, Azərbaycan dili müstəqil respublikamızın dövlətçiliyinin önəmli rəmzlərindən biri, xalqımızın özünəməxsusluğunun ən ciddi göstəricisidir. Haqlı olaraq, qürur duyuruq ki, nəhayət, Azərbaycan dili dünya dilləri sırasında özünün layiqli rəsmi yerini tapıb. Dövlətimizin Əsas qanununda –Konstitusiyamızda da onun hüquqi əsasları təcəssüm etdirilib, respublikamızın əsas dövlət dili kimi təsbit olunub.

Bu gün ölkəmizdə bütün rəsmi sənədlər, yazışmalar bilavasitə ana dilimizdə, neçə-neçə böyük mədəniyyətin yaradıcısı olan Azərbaycan dilində həyata keçirilir. Xalqımız bu xoşbəxtliyə asanlıqla nail olmayıb. Dilimizin təşəkkül tarixi xalqımızın özü qədər qədim olsa da, bu ümumxalq sərvəti müxtəlif dövrlərdə mürtəce basqılara məruz qalıb. Milli varlığımıza biganə münasibətlə bağlı, xüsusən dövlət müstəqilliyimizin itirildiyi zamanlarda ana dilimizin dövlət qurumlarında, kargüzarlıq sənədləşdirilməsində, təhsildə işlədilməsinə qadağalar qoyulub. Buna dözməyən qeyrətli ziyalılarımız dilimizə bəslənən ədalətsizliyə, onun geniş işlədilməsinə göstərilən təzyiq və təhriflərə qarşı daim mübarizə aparıb, cəfa və məhrumiyyətlərə sinə gərib. Xalq isə öz həyat və fəaliyyətində doğma dilinə sadiq qalıb, onu qoruyub və yaşadıb.

İslam mədəniyyətinin yayılması tələbləri ilə məişət səviyyəsinə sıxışdırılmış Azərbaycan dili XVI əsrdə Səfəvilər hakimiyyəti dövründə dövlət dili səviyyəsinə qalxdı. Rəsmi saray dilinə çevrildi. O dövrdə bütün kargüzarlıq, yazışmalar, ünsiyyət Azərbaycan dili vasitəsiylə həyata keçirilirdi. Nə edəsən ki, milli dövlətçiliyimiz xarici müdaxilə qarşısında uzun müddət duruş gətirə bilmədi. Nəticədə, başı müsibətlər çəkmiş xalqımız nəinki milli dövlətçiliyini itirdi, həm də doğma ana dilinin rəsmiyyətdə işlədilməsi xoşbəxtliyindən kənarda qaldı. Azadlıq, müstəqillik, Azərbaycan dilinin təşəkkülü uğrunda çarpışmalar isə davam edirdi.

1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti yenidən ana dilinin tətbiq olunması yolunda ciddi addımlar atdı. Ölkədə rəsmi Azərbaycan dili bərqərar oldu. Fəqət, bu gənc dövlətin də ömrü qısa oldu. Şərqdə ilk demokratik respublikanı süquta uğradan bolşevik rejimi sonrakı illərdə Azərbaycan dilinin rəsmi dövlət dili kimi mövqelərinin tam bərqərar edilməsinə imkan vermədi. Üstəlik, bu dilin mübariz təəssübkeşlərinə, milli düşüncə fəallarına qarşı amansız hücumlar başladı. Lakin qəhrəman xalqımız öz mənəvi varlığı, milli dili, azadlığı uğrunda mübarizəni dayandırmadı. Azərbaycanın qeyrətli oğulları işgəncə və məhrumiyyətləri, ölümü göz altına alıb, cəsarət nümayiş etdirdilər.

Ziyalılarımız dövlətçilik, ana dili uğrunda mübarizə yollarında ürəkləri məşəl kimi başları üzərinə qaldırdılar. Qüdrətli söz ustadlarımız Azərbaycan dilinin dürlü ifadələriylə, bu dildəki çoxtutumlu sözlərin sətiraltı mənaları ilə eyhamla duyğu və düşüncələrini xalqa əyan etdilər. Şairlərimiz haqq səslərini cilovlaya bilməyib hayqırırdılar: “Azadlığı istəmirəm qram-qram...”, ”Qalx ayağa ya azad ol, ya tamam yan, Azərbaycan...” Poeziyamızda Vətənin ikiyə bölünməsinə üsyan olaraq “çöpün də ikiyə bölünməsinə” etiraz bildirilirdi. Millətin “söz savaşına” çıxan qeyrətli övladları incəsənət əsərlərində, mətbuatda ana dilimizi yaşadır, onu milli varlığımızın qılınc-qalxanına çevirirdilər.

Azadlıq , ana dilimizin rəsmiləşdirilməsi, təmizliyi uğrunda məharətlə, söz savaşı qaydasında fikir, duyğu izhar edənlər “təhlükəsizlik keşikçiləri” tərəfindən nəzarətə götürülürdü. Öz milli dilini alovlu məhəbbətlə sevən , müstəqil Azərbaycan dövləti uğrunda mübarizə apan fədakar insanlarımıza xalq düşməni damğası vururdu. Bələlərinin bir çoxu ötən əsrin 30-cu illərində milli qırğınların qurbanlarına çevrildilər, mənəvi-fiziki məhrumiyyətlərə məhkum edildilər. Buna baxmayaraq, xalqın özünüdərk hərəkatı durmadan gizlin-aşkar canlanır, genişlənirdi. Qəlblərdə yeni-yeni vətənpərvərlik qönçələri açılırdı. Elə bu sətirlərin müəllifi də 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin tələbəsi olarkən ictimai-siyasi sənədləşmədə doğma ana dilindən istifadəyə üstünlük verəndə təhdidlərə, hədələrə məruz qalıb, hətta ali məktəbdən xaric olmaq təhlükəsiylə üzləşib.

Sovet kommunist hökmranlığı dövründə respublikanın qanunverici orqanı xalqla birlikdə olduğunu bariz şəkildə nümayiş etdirdi. 1956-cı il 21 avqustda Azərbaycan SSR Ali Sovetinin üçüncü sessiyası respublikada rəsmi dövlət dilinin Azərbaycan dili olması haqda hüquqi qərar qəbul etdi. Belə müstəqil, ötkəm addım Kremldə qəzəb və qısqala qarşılandı. Moskvanın tələbi ilə respublikanın o vaxtkı rəhbərləri vəzifələrindən haqsız olaraq kənarlaşdırıldı. 1978-ci ildə isə SSRİ daha möhkəm dayaqlar üzərində idi. Belə bir şəraitdə respublikamız üçün müstəsna əhəmiyyətli hadisə baş verdi. O zaman Azərbaycana rəhbərlik edən ümummilli lider Heydər Əliyev öz şəxsi nüfuzu, siyasi məntiqi və mətin iradəsi ilə mərkəzin qadağasını pozaraq Azərbaycan dilinin dövlət dili kimi respublika Konstitusiyasında təsbit olunmasını təmin etdi. Bu, həmin dövr üçün görünməmiş, çox cəsarətli və qətiyyətli bir addım idi.

Nəhayət, xalqımız ötən əsrin son onilliyində uzun, ardıcıl və qanlı mübarizələrdən sonra öz dövlət müstəqilliyini bərpa etdi. Milli dilimizin hərtərəfli inkişaf etdirilməsi yolunda geniş üfüqlər açıldı. Xalqın tələbi ilə hakimiyyətə qayıdan, azərbaycanlı olmağı ilə daim fəxr edən ümummilli lider Heydər Əliyev ana dilimizin qorunması və inkişafı üçün bütün zəruri tədbirləri ardıcıl həyata keçirdi. Ulu öndər ölkədə doğma ana dilinin hər sahədə işlək olması, yazı qrafikasının yenilənməsi haqqında müstəsna əhəmiyyətli, tarixi sənədlər imzaladı. Onlardan biri “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli fərmandır. Həmin tarixi sənəddə ölkənin rəhbər qurumlarına 9 bənddən ibarət önəmli vəzifələr həvalə olunmuşdu: “Yerlərdə istifadə olunan lövhə, reklam tabloları, şüarlar, plakatlar və digər əyani vasitələrin Azərbaycan ədəbi dilinin qaydalarına uyğunlaşdırılması baxımından ciddi əməli tədbirlər görsünlər... Azərbaycan dilinin və latın qrafikasının tətbiqi işinə nəzarəti gücləndirsinlər ...”

Həmin illərdə mən “Xalq qəzeti” redaksiyasında çalışırdım. Avqust ayından mühüm, ümummilli əhəmiyyətli həmin fərmanın icrasına başlanmışdı. Artıq ölkəmizdəki bütün mətbuat vasitələri latın qrafikası ilə çap edilirdi. Digər sahələrdə vəziyyətin necə olduğunu öyrənmək amalı ilə paytaxtın məşhur Nizami küçəsi ilə təkbaşına reyd elədim. Mağazaların, əyləncə yerlərinin, digər binaların üzərindəki lövhələrin, eləcə də nəqliyyat vasitələrinin elanbildirişlərinin hansı qaydada yazılmasını nəzərdən keçirdim. Şahidi oldum ki, onların böyük əksəriyyəti elə əvvəlki qaydada-köhnə qrafikadadır. Redaksiyaya qayıdıb “Prezidentin fərmanı təkcə mətbuatamı aiddir?” başlıqlı replika hazırladım. Yazım sabahı gün -7 avqust 2001-də “Xalq qəzeti”ndə dərc olundu.

Bu məsələni yenidən qələmə almaqda məqsədim heç də o vədəki səyimi qabartmaq yox, başqa bir olay barədə söhbətə yol açmaqdır. Nə üçün dünya bazarında başabəla dolların kursunu elə həmin gün malların üzərindəki qiymətlərdə əks etdirənlər ana dilimizin dövlət statusunun təmin edilməsi ilə bağlı qəbul edilən sənədlərin konkret, aydın, qəti müddəalarına saygısızlıq göstərirlər? Nə yaxşı ki, Prezident İlham Əliyev milli varlığımızı aşağılayan halların qarşısını öz sərəncam və fərmanları ilə kəsir, ana dilimizin saflığının qorunmasını, dilin öz imkanları hesabına zənginləşdirilməsi yolunda geniş üfüqlər açır.

Dövlət başçısı ana dilimizin yeni inkişafı, yad sözlərdən təmizlənməsi yolunda mühüm tədbirlər həyata keçirir. Cənab İlham ƏliyevAzərbaycan Milli Elmlər Akademiyasının 70 illiyinə həsr olunmuş yığıncaqda çıxışında söyləmişdir: “Əsrlər boyu Azərbaycan xalqını bir xalq kimi qoruyan bizim mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, xalçaçılıq sənətimiz və digər ənənələrimiz olub. Bizim bu sahədəki bütün fəaliyyətimizin əsasında Azərbaycan dili dayanır. Azərbaycan dili bizi bir xalq, millət kimi qoruyub. Əsrlər boyu biz başqa ölkələrin, imperiyaların tərkibində yaşadığımız, müstəqil olmadığımız dövrlərdə milli dilimizi qoruya, saxlaya bilmişik. Azərbaycan dilinin saflığını qoruya bilmişik. Ona görə bu gün bəzi hallarda görəndə ki, dilimizə xaricdən müdaxilə edilir və bəzi hallarda bu müdaxilələr Azərbaycanda da dəstək qazanır, bu, məni doğrudan da çox narahat edir. Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyacı yoxdur”.

Hazırda ölkəmizdə həyatın elə bir sahəsi yoxdur ki, Azərbaycan dili orada rahat işlədilə bilməsin. Bununla yanaşı, ana dilimizin öyrənilməsi və tətbiqi sahəsində həllə görüləsi işlər çoxdur . Kəskin tənqidlərə baxmayaraq, reklam vasitələrinin hazırlanmasında bir çox hallarda xarici dillərə əsassız olaraq üstünlük verilir. Kütləvi informasiya vasitələrində də tez-tez yad söz və ifadələr işlədilir.

Prezident İlham Əliyev Milli Elmlər Akademiyamızdakı məşhur nitqinin davamında bildirmişdir: “ Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik...”

“Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında “Azərbaycan Respublikası Prezidentinin 1 noyabr 2018-ci il tarixli fərmanında isə, haqlı olaraq, göstərilir ki, müasir Azərbaycan dili mükəmməl qrammatik quruluşa, zəngin lüğət tərkibinə və ifadə vasitələrinə malikdir. Bununla yanaşı, dilimizin hüdudsuz imkanlarından yetərincə və düzgün istifadə edilməməsi halları hələ də kifayət qədər geniş yayılmışdır. Televiziya və radio kanallarında, internet resurslarında, mətbu nəşrlərdə və reklam daşıyıcılarında ədəbi dilin normalarının kobud şəkildə pozulması, leksik və qrammatik qaydalara əməl edilməməsi, məişət danışığından istifadə olunması, əcnəbi söz və ifadələrin yersiz işlədilməsi az qala adi hala çevrilmişdir. Bu sahədə hüquqi tənzimləmənin və daimi nəzarətin olmaması dil pozuntularının azaldılması və aradan qaldırılması istiqamətində təsirli tədbirlər görməyə imkan vermir.

Fərmanda Azərbaycan dilinin saflığının qorunmasını və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsini təmin etmək məqsədilə Nazirlər Kabineti qarşısında konkret vəzifələr də qoyulmuşdur. İnanırıq ki, hökumət və səlahiyyətli icra orqanları “Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi” publik hüquqi şəxs yaradılması, Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da yaxşılaşdırılması ilə bağlı Tədbirlər Planı”nın və kütləvi informasiya vasitələrində, internet resurslarında və reklam daşıyıcılarında ədəbi dil normalarının pozulması hallarının qarşısını almaq üçün qanunvericilik aktlarında dəyişikliklər barədə təkliflərin hazırlanması ilə bağlı məsələləri yüksək səviyyədə həll edəcəkdir.

Nəhayət, yazının əvvəlindəki epizoda qayıdıram. Sünbül hörüklü, çiçək timsallı qızcığazı xatırlayıram. Şirin, doğma, ana südü qədər dadlı kəlmələri ilə yenidən səslənir: “Azər, anamız bizi çağırır...” Yan-yörəmə nəzər salıram, Azəri axtarıram... Mənə elə gəlir ki, bu məsum qız təkcə qardaşı Azəri yox, Azərin timsalında hər bir azərbaycanlını səsləyir. Səsləyir ki, öz ana dilinə və doğma yurduna sahib çıxsın, öz ana Vətəninin narahat harayına səs versin.

*Rafiq HƏSƏNOV,*
*veteran jurnalist*